# B İ L D İ R İ Ş

**Bakı şəhəri, Nizami küçəsi 67, "Azərbaycan Beynəlxalq Bankı"**
**Açıq Səhmdar Cəmiyyəti**

**05.04.2024-cü il**

**Hörmətli səhmdar!**

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsini rəhbər tutaraq, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - "ABB" ASC) İdarə Heyəti Sizin nəzərinizə çatdırır ki, 20.05.2024-cü il tarixində saat $15^{00}$-da Bakı şəhəri, Nizami küçəsi 67 ünvanında Bankın səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Bununla yanaşı bildiririk ki, "ABB" ASC-nin Nizamnaməsinin 8.10-cu maddəsinə əsasən səsvermənin **qiyabi şəkildə** həyata keçirilməsi nəzərdə tutulmuşdur. Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxil edilir:

1. "ABB" ASC-nin kənar auditor tərəfindən yoxlanılmış 2023-cü ilin maliyyə hesabatları və idarəetmə hesabatının təsdiq edilməsi;
2. 2023-cü ilin maliyyə nəticələrinə əsasən "ABB" ASC-nin səhmdarlarına dividendin ödənilməsi;
3. "ABB" ASC-nin Müşahidə Şurasının tərkibi;
4. "ABB" ASC-nin İdarə Heyəti sədrinin təyin edilməsi;
5. "Banklarda korporativ idarəetmə Standartları"nın tələblərinə əsasən "ABB" ASC-də bir sıra əməkdaşların mükafatlarının təxirə salınması;
6. Əlavə səhmlərin buraxılması yolu ilə "ABB" ASC-nin nizamnamə kapitalının artırılması;
7. "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Nizamnaməsinin və "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Müşahidə Şurası haqqında Əsasnamənin yeni redaksiyada təsdiq edilməsi

Ümumi yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə materiallar və səsvermə bülleteni 13.05.2024-cü il tarixindən Bankın rəsmi internet səhifəsində yerləşdiriləcəkdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-3.2-ci maddəsini və "ABB" ASC-nin Nizamnaməsinin 8.10-cu bəndini nəzərə alaraq qeyd edirik ki, ümumi yığıncağın gündəliyində olan məsələlərə münasibətinizi dəqiq və şərtsiz bildirmək (lehinə, əleyhinə, bitərəf) və imzanız qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilmək, habelə şəxsiyyət vəsiqənizin surətini təqdim etmək şərti ilə bülleten formasını bu bildirişdə qeyd edilən qaydada əldə edib, dolduraraq qapalı zərfdə Bakı şəhəri, Nizami küçəsi 67 ünvanına 20.05.2024-cü il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz.

Nəzərinizə çatdırırıq ki, yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması ümumi yığıncağın keçirildiyi gün Bankın korporativ katibi tərəfindən həyata keçiriləcəkdir.

**"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin**
**İdarə Heyəti**